KAMRAN İMANOV

# IT-IP: ƏQLİ MÜLKİYYƏTİN GƏLƏCƏYİNƏ BAXIŞ

Bakı – 2018

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**IT-IP: əqli mülkiyyətin gələcəyinə baxış. Bakı, 2018**

Bu kitabça Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun Müəllif Hüquqları Agentliyinin təşkilatçılığı ilə ÜƏMT və Avropa İttifaqı ilə əməkdaşlıqda 26 aprel 2013-cü il tarixində keçirilən "Azərbaycan 2020: əqli mülkiyyətin gələcəyinə baxış" mövzusunda beynəlxalq simpoziumda etdiyi çıxış sözü və "IT-IP: əqli mülkiyyətin gələcəyinə baxış" adlı prezentasiya əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi, 2013, 2014, 2015, 2016, 2017**

**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2018**

# Mündəricat


Çıxış sözü .................................................... 5

Azərbaycan 2020: gələcəyə baxış
İnkişaf Konsepsiyası .................................... 13

1. “Müasir çağırışlar” bölməsi: “yaradıcılığın, innovasiyaların stimullaşdırılmasına və bazarın tənzimlənməsinə dəstək olan əqli mülkiyyətin əhəmiyyətinin yüksələcəyi” ......... 13

2. “Strateji baxış və prioritetlər” bölməsi ........... 17

“Yüksək rəqabət qabiliyyətli iqtisadiyyata doğru” bölməsinin “iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı” 4.2 yarımbölməsindən ... 18

4. “Yüksək rəqabət qabiliyyətli iqtisadiyyata doğru” bölməsinin “elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi” ......... 23

5. “İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi” bölməsindən ............ 26

6. “İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması” bölməsinin “Müasir təhsil sisteminin formalaşdırılması” 7.2 yarımbölməsindən .................................. 28

7. “Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi” bölməsindən ................................................ 31

8. “Mədəni irsin qorunması və səmərəli idarə edilməsi” bölməsindən ................................. 35

## Çıxış sözü

Hörmətli konfrans iştirakçıları, xanımlar və cənablar, dəvət olunmuş qonaqlar və media nümayəndələri!

Beynəlxalq cəmiyyət 26 aprel gününü 2001-ci ildən başlayaraq, Əqli Mülkiyyət Günü kimi qeyd edir və Azərbaycanda bir ənənə olaraq 13 ildir ki, bu bayram günü ilə bağlı Müəllif Hüquqları Agentliyi müxtəlif növ tədbirlər keçirdir. Biz bugünkü tədbirimizi – beynəlxalq simpoziumu 23 aprel – "Ümumdünya kitab və müəlliflik hüququ günü" kimi keçirilən tədbiri Ümummilli lider Heydər Əliyevin unudulmaz xatirəsinə həsr edirik. Bugünkü yığıncağın mövzusu əqli mülkiyyətin (ƏM) gələcəyi ilə bağlıdır və məhz Heydər Əliyevin dahi uzaqgörənliyi və fitri proqnozlaşdırma istedadı Azərbaycanın müasir ƏM sistemini qurmağa imkan yaratmışdır. Çünki, keçmişi izah etmək üçün ilahi vergidən, bu günü anlamaq üçün istedaddan, gələcəyi görmək üçün dahilikdən daha artıq nemətlər varisi olan Heydər Əliyev dövlətimizin digər istiqamətləri ilə yanaşı, əqli mülkiyyət sahəsinin gələcəyinin cizgilərini də təxminən 20 il əvvəl çəkmişdi. Onu da xüsusi qeyd edirəm ki, tədbirimiz Ulu öndərin ömür-gün yoldaşı, görkəmli həkim-oftalmoloq, alim-akademik, bənzərsiz ziyalı və qayğıkeş insan Zərifə xanım Əliyevanın doğum günü ərəfəsində keçirilir.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) bu ilki Beynəlxalq Əqli Mülkiyyət Gününün devizini yayımlayıb: «Yaradıcılıq – sonrakı nəsil», belə ki, gələcəyin növbəti yeni texnoloji nailiyyətlərinə, mədəniyyət və incəsənətin sabahkı gününün proqnozlaşdırılmış mənzərəsinə seyr etməyi cəlb etdirir. Gələcəyin on-layn yeniliyi və yaxud musiqisi nə cür olacaq, hansı üsullarla gündən-günə dəyişən dünyada yayılacaq? Əqli mülkiyyət, müəlliflik hüququ mədəniyyətin aparıcı amili, vacib iqtisadi aləti, informasi-

ya cəmiyyətinin dəstəkləyicisi kimi gələcəyi nə cür inkişaf etdirəcək? Əslində yaradıcılıq bizim təbii resurslarımızdan irəli gələn fenomendir və yaradıcılıq bütün insanlara xasdır. Əqli mülkiyyətin isə məqsəd-məramı, onun təyinatı yaradıcılığa və yenilikçiliyə stimul, həvəsləndirici alət olmaqdan ibarətdir. Yaradıcılıq formaları, insanın özünüifadə üsulları sürətlə dəyişir və əvəzimizə gələn yeni nəsil dünyamızın dəyişməsində daha böyük töhfələr verəcək. Arzu etmək, gələcəyi yaratmaq gənclərimizin xüsusiyyətidir, çünki gənclərimiz – elə gələcəyimizin özüdür. Yaradıcılığın və əqli mülkiyyətin gələcəyi və rolu haqqında fikirləşərək, qoyulan suallara cavab axtararaq, Azərbaycanımızı düşünərək, biz ilk növbədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Azərbaycan 2020: Gələcəyə baxış İnkişaf Konsepsiyası»na müraciət etməliyik. Azərbaycanın gələcəyini planlaşdıran bu mühüm sənəddə müəlliflik hüququ və əqli mülkiyyət məsələləri öz layiqli yerini tutmuşdur. Konsepsiyaya əsasən, «yaradıcılığın, innovasiyaların stimullaşdırılmasına və bazarın tənzimlənməsinə dəstək olan əqli mülkiyyətin əhəmiyyətinin yüksələcəyi» qeyd edilərək, əqli mülkiyyət hüquqları «Konsepsiya çərçivəsində əsas prioritet kimi qəbul edilmiş və… müvafiq siyasət tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur».

Beləliklə, dövlət rəhbərliyi yeni tərəqqi baxışlar nümayiş etdirərək, əqli mülkiyyət fenomeninin əhəmiyyətini, mədəniyyətin, iqtisadiyyatın və informasiya cəmiyyətinin inkişafının aparıcı qüvvəsinə çevrilməsini nəzərə alaraq, Azərbaycanda «biliklərə əsaslanan», «rəqəmli» və ya «kreativ iqtisadiyyata» yol açır və ƏM ilə bağlı məsələləri diqqət mərkəzində saxlayır.

Konsepsiyaya uyğun olaraq, müəllif-hüquq sahəsinin islahatlarını biz aşağıdakılarda görürük:

- yaradıcı fəaliyyətin, mədəni müxtəlifliyin və yenilikçiliyin yardımı məqsədilə hüquq sahiblərinin tanınması və həvəsləndirilməsi;

- istifadəçilərə leqal kontentin daha asan əldə edilməsi və daha çox seçim imkanlarının təmin edilməsi;

- müəllif hüququna aid yeni biznes-modellərin yaranmasının dəstəyi;

- piratçılıqla bağlı qeyri-leqal təkliflərin azalmasına xidmət edən tədbirlərin həyata keçirilməsi.

Dövlət başçısının bu sahədəki siyasəti lakonik, ancaq çox tutarlı fikirlərində öz əksini tapıb:

Prezident cənab İlham Əliyevin İslam əməkdaşlıq Təşkilatına üzv dövlətlərinin beyin mərkəzlərinin III Forumunun iştirakçılarına ünvanladığı salamlamada qeyd edildiyi kimi, «Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir…». Odur ki, dövlət başçımızın məşhur «Qara qızıl insan kapitalına çevirək» şüarı kreativliyə, yaradıcılığa, yenilikçiliyə və onları qoruyub və həvəsləndirən sirdaşı ƏM-ə verilən ən böyük dəstəkdir.

Bu baxışlar Avropa Komissiyasının 2012-ci ilin sonunda dərc edilən «Müəlliflik hüququnun modernləşdirilməsi istiqamətlərinə» aid Memorandumunda və 2011-ci ildə təsdiq olunan Əqli mülkiyyət üzrə Strategiyası ilə səslənir. Çünki, qeyd olunduğu kimi, yaxın gələcək illərdə «rəqəmli» (kreativ) iqtisadiy-yatın inkişafının dinamikası 7 dəfə iqtisadiyyatın digər sahələrini üstələyəcək. Həmin tendensiyanı dəstəkləyən isə ən vacib rol müəlliflik hüququna məxsusdur. Onu da qeyd etməliyik ki, hal-hazırda dünya iqtisadiyyatında ƏM-ə əsaslanan sahələrin 4 trln. ABŞ dollarını aşaraq 14,4% təşkil edir.

«Azərbaycan 2020: Gələcəyə baxış İnkişaf Konsepsiyası»nın «Yüksək rəqabət qabiliyyətli iqtisadiyyata doğru» bəndinin 4.2-ci yarımbölməsində göstərildiyi kimi, «Əqli fəaliyyətin nəticələrinin təşviqi, innovasiya və yaradıcılığa investisiya qoyuluşu üçün əlverişli şərait yaradılması və ƏM-ə əsaslanan kreativ iqtisadiyyatın davamlı inkişafı, ölkənin ÜDM-ində onun payının artırılması üçün tədbirlər həyata keçiriləcəkdir».

Müəllif Hüquqları Agentliyində aparılan araşdırlmalar göstərir ki, son 5 ildə Azərbaycanın kreativ, yəni müəlliflik hüququna əsaslanan iqtisadiyyatın ÜDM-dəki payı 2008-ci ildə – 3,1%, 2012-ci ildə – 4,5% inkişaf etmiş ölkələrə yaxın göstəriciyə qədər yüksəlmişdir. Bunlar dövlətimizin müəlliflik hüququ sahəsində apardığı siyasətinin nəticəsidir. Bununla kifayətlənməyərək, «Azərbaycan 2020: Gələcəyə baxış İnkişaf Konsepsiyası»nın icrasına dair «Biliklərə əsaslanan iqtisadiyyatda ƏM-in rolu» layihəsi və məsələyə aid «2013-2015-ci illər üçün Dövlət Proqramı» hazırlanır.

«Azərbaycan 2020: Gələcəyə baxış İnkişaf Konsepsiyası»nın 4.3 yarımbölməsində qeyd olunduğu kimi, «İqtisadi məqsəd və resurslar, bilik və mədəniyyət sahəsinin vəzifələri ilə informasiya texnologiyalarının inkişafı arasındakı əlaqələrin müəyyənləşdirilməsi uzunmüddətli dövr üçün ƏM-ə dair Milli Strategiyada və ondan irəli gələn Dövlət Proqramında əksini tapan innovasiya potensialının inkişafına kömək» edəcəyi bildirilir. Həmin prinsipial sənədlər, demək olar ki, hazırdır.

İnkişaf Konsepsiyasının 6-cı bölməsində «İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi», «İKT və ƏM-in qarşılıqlı təsiri və ƏMH ilə qorunan bir çox obyektlərin qlobal rəqəmsal şəbəkəyə çıxışı nəzərə alınaraq, on-line lisenziyalaşmaya və one-stop-shops formatında xidmətlə-

rin göstərilməsinə əsaslanan rəqəmsal hüquqları idarəetmə sistemi»nin yaradılması nəzərdə tutulur. Qarşımızda duran mühüm vəzifənin layiqincə yerinə yetirmək məqsədilə biz Avropanın bir sıra aparıcı dövlətləri ilə TVİNNİNQ layihəsi çərçivəsində əməkdaşlıq edirik. «ƏMH təminatı və piratçılığa qarşı mübarizə haqqında» yeni Qanunun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı əsasında Agentlik nəzdində Əqli mülkiyyət hüquqlarının təminatı Mərkəzi yaradılıb. Mərkəzin daşıdığı funksiyalardan biri – tərkibində ƏM olan malların (kitablar, audiovizual əsərlər, fonoqramlar, softver) nəzarət markaları ilə təmin edilməsi nəzərdə tutulur. Nəzarət markasının əsasını təşkil edən holoqrafik yapışdırılan, metal plyonkadan hazırlanan kiçik etiketdir. Onun markaya çevrilməsi, yəni unikal kodu ilə fərqlənməsi xüsusi fərdiləşmə informasiya sistemi vasitəsilə Agentlikdə aparılır. Bu zaman nəzarət markası xüsusi printerlər vasitəsilə unikal nömrələr və digər məlumatlar verilməklə çap etdirilir və laminasiya sistemi əsasında əlavə müdafiə imkanı yaradılır.

İşlədilən proqram-aparat kompleksi bir sıra yeniliklərlə səciyyələnir: məlumat bazası hər bir, o cümlədən xarab olmuş markanın bütün «həyat mərhələlərini» izləyir. Bazardakı markalanmış məhsulun legitimliyini yoxlamaq məqsədilə distant smartfon mobil telefonlarından istifadə etmək imkanı yaradılıb.

Rəqəmsal şəbəkəyə on-line icazə verməklə «one-stop-shops», yəni əsərlərin növündən asılı olmayaraq, kontentin bir yerdən istifadəsinə şərait yaradılmaqla, hüquqların idarəetmə sisteminin də biznes-modeli və ilkin layihəsi artıq hazırdır.

Layihənin mühümlüyünü ifadə etmək üçün iki faktı qeyd etmək kifayətdir: sürətlə rəqəmləşən dünyanın yalnız virtual məkanında 1,2 Zetta byt ($10^{21}$ byt) informasiya

mövcuddur, E-com. isə hər il 40-50% artır. Buradakı əsas problem – rəqəmli hüquqların idarə edilməsində hüquq sahiblərinin maraqları və istifadəçilərin informasiyanı asanlıqla əldə edilməsi arasındakı tarazlığı tapmaqla yanaşı, iqtisadi inkişafa və investisiyaların artımına təkan verməkdir. Azərbaycan öz biznes modelini hazırlayıb istifadəyə verməyə hazırlaşır.

İnkişaf Konsepsiyasının 7-ci bölməsinin «İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması» 7.2-ci yarımbölməsində «ödənişsiz əsaslarla fəaliyyət göstərən təlim resurslarının yaradılması, bu resursların müəllif-hüquq lisenziyaları ilə təmin olunmaqla, təhsil prosesinə inteqrasiya edilərək açıq istifadəyə verilməsi» bir vəzifə kimi qarşıya qoyulmuşdur. Məsələ ondadır ki, elektron dərslik və vəsaitlərin hüquqların pozulmamaq şərti ilə təhsildə istifadəsi (tələbə və müəllim heyəti tərəfindən) yeni yanaşmalar tələb edir. Məsələn, Creative Commons (CC) icazələri yaradıcının müəlliflik hüququnu (şəxsi hüquqlar) saxlamaqla, əmlak hüquqlarından imtina etməsini təşkil edir. Nəzərə alsaq ki, virtual məkanda hazırda 580 mln. əsər bu lisenziya üzrə yayılır, 54 ölkədə bilavasitə və 100-ə yaxın ölkələrdə yerli şəraitə uyğunlaşdırılmış bu cür sistemlər tətbiq olunur, Agentlik Təhsil Nazirliyi üçün belə layihənin üzərində işləyir. Burada Çinin belə dərslik və vəsait hazırlamasında müəllimlərin mükafatlandırma sistemi də nəzərdən keçirilir.

İnkişaf Konsepsiyasının «Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi» adlı 8-ci bölməsində nəzərdə tutulan müddəalar «Qanunvericilik təkmilləşdiriləcək, piratçılıq və kontrafaksiya da daxil olmaqla, ƏMH-nın pozulmasına qarşı səmərəli tədbirlər görüləcəkdir» istiqamətləri təsbit etdirir.

Qeyd etməliyəm ki, son bir ildə yeni «ƏMH təminatı və piratçılığa qarşı mübarizə haqqında» Qanun, Dövlət

başçısının qanunun tətbiqi haqqında Fərmanı, İnzibati Xətalar Məcəlləsində və Müəllif Hüquqları Agentliyinin Əsasnaməsində edilən dəyişikliklərlə yanaşı, Nazirlər Kabinetinin Qanunun icrası ilə bağlı 3 Qərarı qəbul edilib və daha 3 Qərarın qəbul edilməsi yaxın vaxtlarda gözlənilir. Bunlardan savayı Agentlik tərəfindən hazırlanan, Konsepsiyaya uyğun olan 5 Qərar layihələri Nazirlər Kabinetinə təqdim olunub, İnzibati Xətalar və Cinayət Məcəlləsinə təkliflərimiz əsasında dəyişikliklər gözlənilir. Qanunvericiliyin təkmilləşdirilməsində və piratçılıqla mübarizənin güclənməsində xarici təcrübə nəzərə alınır. O cümlədən, ACTA-nın Avropa Parlamenti tərəfindən təsdiq edilməməsi və ABŞ qanunvericiliyi tərəfindən SOPA və PİPA qanun layihələrinin təxirə salınması. Bununla belə, rəqəmli kontentin xüsusiyyətləri ilə bağlı müəllif-hüquq qanunvericiliyində istisnaların və məhdudiyyətlərin genişlənməsi, on-line məlumat bazalarının yaradılması, istifadəçilər yaradan kontentə diqqətin artırılması, mədəni irsin qorunması və yayılmasına diqqət artırılacaq.

İnkişaf Konsepsiyasının «Mədəni irsin qorunması və səmərəli idarə edilməsi» adlı 10-cu bölməsində isə qeyd edilmişdir ki, «Qeyri-maddi mədəni irsin tərkib hissələrinin qorunub saxlanılması, bu sahədə qanunsuz mənimsəmələrin və əsassız itkilərin qarşısının alınması, folklor nümunələrinin və ənənəvi biliklərin UNESCO-nun xüsusi qorunma siyahısına daxil edilməsi üçün əlavə tədbirlər həyata keçiriləcək, həmçinin milli qanunvericiliyin kompleks şəkildə təkmilləşdirilməsi, müəlliflik hüququnun və əlaqəli hüquqların qorunması, beynəlxalq normativ hüquqi bazanın tətbiqi və inkişafında iştirak təmin ediləcəkdir. Azərbaycana məxsus mədəni sərvətlərin, o cümlədən muzeylərdə, kitabxanalarda və arxivlərdə qorunub-saxlanılan və ictimai varidat sayılan mədəni irs və digər ƏM nümunələrinin mərkəzləşmiş şəkildə rəqəmləşdirilməsi, mühafizəsi,

hüquqi qorunması və beynəlxalq təşkilatlarla, həmçinin xarici dövlətlərin aidiyyəti qurumları ilə mübadiləsi təmin ediləcəkdir».

Bu problem Agentliyin fəaliyyətində ənənəvi olaraq prioritet qalır. Qeyri-maddi mədəni irs deyiləndə biz ənənəvi mədəni nümunələri (folklor) və ənənəvi bilikləri nəzərdə tuturuq. Azərbaycanda bu nümunələr qanunla xüsusi növ ƏM obyektləri kimi qorunur, özü də istər «pozitiv qorunma», istər «müdafiəli qorunma» vasitəsilə, müəllif-hüquq obyektlərinə aid məlumat bazası, folklor nümunələri ilə bağlı multimedia sistemi fəaliyyətdədir.

Qarşımızda hər növ mədəni irsə aid obyektlərin mərkəzləşdirilmiş şəkildə rəqəmləşdirilməsi durur və bu məqsədlə müvafiq texniki baza, müasir avadanlıq Agentlikdə yerləşdirilib, Nazirlər Kabinetinin «Qeyri-maddi irsin pasportlaşdırılması və qeydiyyatı haqqında» xüsusi Qərarı gözlənilir.

Giriş sözümün sonunda bir daha hamını 26 aprel - Beynəlxalq Əqli Mülkiyyət Günü ilə təbrik edir və uğurlar arzulayıram.

# IT-IP: əqli mülkiyyətin gələcəyinə baxış

*"Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir..."*

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

## Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası

1. **"Müasir çağırışlar" bölməsi: "yaradıcılığın, innovasiyaların stimullaşdırılmasına və bazarın tənzimlənməsinə dəstək olan əqli mülkiyyətin əhəmiyyətinin yüksələcəyi".**

### Biliklərə əsaslanan iqtisadiyyat və əqli mülkiyyət



**Dünya iqtisadiyyatı:**

**1** – Müəlliflik hüququna əsaslanan (kreativ iqtisadiyyat)
**2** – Sənaye mülkiyyətinə əsaslanan
Cəmi: 14,4% = 4 trl. ABŞ $
2008-ci ildə Aİ – 860 mlrd. Avro (1,186 ABŞ $)

**Dünya iqtisadiyyatı**

- İqtisadi artım tempinin 80-90% yeni biliklər əsasında;
- Biliklərlə bağlı sahələr ÜDM 45%;
- ABŞ: IP sahələr: 30% iş yeri və 60% ixrac;
- Avropa Komissiyasının 2012-ci il Memorandumu: Yaxın 5 ildə rəqəmli iqtisadiyyatın inkişafı 7 dəfə digər sahələri üstələyəcək.

ƏM insan kapitalının dəyərinə, onun kəmiyyət xarakteristikalarına, həmçinin texnoloji dəyişikliklərin temp və istiqamətinə nəzərə çarpan dərəcədə **təsir göstərir.**

**Müxtəlif ölkələrdə ƏM rolu** (adam başı gəlir səviyyəsindən asılı olan çıxış məhsulun strukturunun fərqləri).

**1** – aşağı gəlir
**2** – orta gəlir
**3** – yüksək gəlir
} ölkələr




**Mənbə:** *Dünya Bankı: Dünya inkişafının tendensiyaları*

## Kreativ iqtisadiyyat və müəlliflik hüququ




**Mənbə:** *UNCTAD, UNDP, UNESCO, ÜƏMT və TM "Kreativ iqtisadiyyat" Hesabatı (2010)*

### "Müəlliflik hüququ + Yaradıcı potensial = = Yeni iş yerləri + İqtisadi artım" araşdırması

Yaradıcı məhsulun ÜDM-dəki payı



Yaradıcı sektorlarda işlərin payı




Sirf müəllif-hüquq sahəsi

Digər (qarşılıqlı münasibətlər, qismən əsaslanan, köməkçi)

Sırf müəllif-hüquq sahəsi




**Mikroiqtisadiyyat:**

ABŞ, maddi və qeyri-maddi aktivlərin nisbəti – 3:7 **(2008)**;

AU qeyri-maddi aktivlər kompaniyaların 2/3 hissəsinin dəyəridir **(2009)**.

**2. “Strateji baxış və prioritetlər” bölməsi:**

“Mədəni irsin qorunub saxlanması, səmərəli idarə olunması, yeni yaradıcılıq nəticələrin qorunması və zənginləşdirilməsi... Konsepsiya çərçivəsində əsas prioritet kimi qəbul edilmiş və... müvafiq siyasət tədbirlərin həyata keçiriləcəyi nəzərdə tutulmuşdur”.

**Tədbirlər:**

- Hüquq sahibləri, mütəxəssislər, tələbə-dissertantlar, hüquqları həyata keçirən və hüquqların təminatını dəstəkləyən peşəkarların əqli mülkiyyət sahəsində biliklərinin artırılması məqsədi ilə “Smart” sisteminə əsaslanan interaktiv Təlim-tədris mərkəzinin yaradılması;
- ÜƏMT-nın iştirakı ilə “Rəqəmsal şəbəkədə əqli mülkiyyət hüquqları” və digər aktual mövzularda beynəlxalq milli elmi-praktik konfransların və dəyirmi masaların keçirilməsi və tədbirlərin on-line rejimində yayılması.





**3. "Yüksək rəqabət qabiliyyətli iqtisadiyyata doğru" bölməsinin "iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı" 4.2 yarımbölməsindən:**

"Əqli fəaliyyətin nəticələrinin təşviqi, innovasiya və yaradıcılığa investisiya qoyuluşu üçün əlverişli şərait yaradılması və əqli mülkiyyətə əsaslanan kreativ iqtisadiyyatın davamlı inkişafı, ölkənin ÜDM-ində onun payının artırılması üçün tədbirlər həyata keçiriləcəkdir".

**Tədbirlər:**

- ÜDM-də kreativ sənayenin payının müəyyənləşdirilməsi üzrə 2013-2015-ci illər üçün Dövlət Proqramının hazırlanması;
- "Biliklərə əsaslanan iqtisadiyyatda Əqli mülkiyyətin rolu" layihəsinin həyata keçirilməsi və broşürün nəşri.

## Mövcud vəziyyət: Müəlliflik hüququna əsaslanan sənayenin (kreativ iqtisadiyyat) ölkə ÜDM-dəki payı







**Kreativ iqtisadiyyatın strukturu**

**Mənbə**: *Agentlik və ÜƏMT*

## ÜƏMT-nin 32 ölkə üzrə orta göstəriciləri




## Azərbaycan üzrə (2011)



**Kreativ iqtisadiyyatda əsas müəlliflik hüququnun sahələr üzrə paylanması**






**32 ölkə üzrə məşğulluq payının orta göstəricilər (qruplar arasında paylanma)**




**Azərbaycan üzrə (2011)**



## ÜƏMT: "Müəlliflik hüququ + kreativlik = iş yerləri və iqtisadi inkişaf" (yanvar 2012-ci il)

Müəllif-hüquq sənayesi sahələrinin ÜDM-dəki payı




**Mənbə:** *ÜƏMT*

**4. "Yüksək rəqabət qabiliyyətli iqtisadiyyata doğru" bölməsinin "elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi".**

**4.3 yarımbölməsindən:**

"İqtisadi məqsəd və resurslar, bilik və mədəniyyət sahəsinin vəzifələri ilə informasiya texnologiyalarının inkişafı arasındakı əlaqələrin müəyyənləşdirilməsi uzunmüddətli dövr üçün əqli mülkiyyətə dair Milli Strategiyada və ondan irəli gələn Dövlət Proqramında əksini tapan innovasiya potensialının inkişafına kömək edəcəkdir".

**Tədbirlər:**

- Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə birlikdə ƏM üzrə uzunmüddətli Milli Strategiyanın hazırlanması;
- Müəlliflik hüququ, əlaqəli hüquqlar və digər oxşar əqli mülkiyyət hüquqlarının inkişafı üzrə əvvəllər hazırlanmış 2013-2015-ci illər üçün Dövlət Proqramının layihəsinin yeniləşdirilməsi (*Dövlət Proqramının layihəsinin yekun variantı 13 iyun 2011-ci il tarixində Nazirlər Kabinetinə təqdim edilmişdir*).

## Milli Strategiyanın qurulmasına dair

**Müasir çağırışlar:** ƏM yaradıcılığın və innovasiyaların məntiqini təşkil edir.

**Prinsiplər:**

- ƏM kommersiya xarakteri;
- Biliklərin və ƏM hüquqi normaların institusional sahələrarası xarakteri;
- ƏM-in biliklərarası xarakteri;
- Milli iqtisadiyyat üçün ƏM-in sağlamedici xarakteri;
- ƏM-in elitatəşkili xarakteri.

## Milli Strategiya və Dövlət Proqramının əlaqələndirilməsi






**5. "İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi" bölməsindən:**

"İKT və ƏM-in qarşılıqlı təsiri və ƏMH ilə qorunan bir çox obyektlərin qlobal rəqəmsal şəbəkəyə çıxışı nəzərə alınaraq, on-line lisenziyalaşmaya və one-stop-shops formatında xidmətlərin göstərilməsinə əsaslanan rəqəmsal hüquqları idarəetmə sistemi yaradılacaqdır".

## "Virtual məkanda ƏMH qorunması ilə bağlı tədbirlərin görülməsi"

- ✓ İKT və ƏM-in qarşılıqlı təsiri və ƏMH ilə qorunan obyektlərin qlobal rəqəmsal şəbəkəyə çıxışı nəzərə alınaraq, on-line lisenziyalaşmaya və one-stop-shops formatında xidmətlərin göstərilməsinə əsaslanan rəqəmsal hüquqları idarəetmə sisteminin yaradılması, qeydiyyatdan keçirilmiş əsərlər haqqında elektron məlumat bazasının zənginləşdirilməsi;
- ✓ "ƏMH-nın təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanuna uyğun olaraq müəlliflik hüququ və əlaqəli hüquq obyektlərinin nüsxələrinə yapışdırılan nəzarət markalarının verilməsi prosedurunun elektron qaydada həyata keçirilməsi (yeni elektron xidmətlərin yaradılması) və həmin nüsxələr barədə elektron məlumat bankının formalaşdırılması;
- ✓ "IT-IP" cütlüyü və onun innovasiyalardakı əhəmiyyəti" mövzusunda İqtisadi İnkişaf və Rabitə və İnformasiya Texnologiyaları Nazirlikləri ilə birgə layihənin həyata keçirilməsi və müvafiq materialların dərc edilməsi;

- ✓ Müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin nüsxələrinə yapışdırılan nəzarət markalarının fərdiləşdirilməsi üzrə elektron sistemin yaradılması;
- ✓ Smart tipli mobil telefon vasitəsilə nəzarət markası yapışdırılan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, kitab) nüsxələrinin orijinallığını müəyyən edən "Track & Trace" Sisteminin (nəzarət markalarının və nüsxələrin qanuniliyinin "izlənməsi" sistemi) yaradılması.

## Rəqəmləşən dünya

- ❖ 2010-cu il: rəqəmli informasiyanın həcmi 1,2 Zetta byt (1 Zetta byt = $2^{70}$ = $10^{21}$ byt);
- ❖ 2011-ci il: Yalnız Creative Commons (sərbəst istifadə) vasitəsilə yayılan əsərlərin sayı 580 mln.;
- ❖ 2010-cu il: Avropa rəqəmli kitabxanası (Europeana) – 135 mln. sənəd (əsər);
- ❖ 2010-cu il: Google on-line kitab mağazası təqribən 130 mln. rəqəmli kitab (Google Editions);
- ❖ 2010-cu il: On-line kitab satışında 200% artım (ümumi kitab satışının təqribən 5%), CD və DVD ümumi satışı 7% azalsa da rəqəmli musiqinin satışı hesabına ümumi satış 13% artıb;
- ❖ You Tube portalına hər dəqiqə 10 saatlıq video yayımlar daxil olunması;
- ❖ ƏM-ə aid e-com. hər il 40-50% artır, hər il buna 1 mln. qədər insan qatılır və hər e-mağaza ayda 1,2 mln. əməliyyat aparır;
- ❖ Ümumiyyətlə e-com. 19% hər il artır.




**Əsas problem**

- Rəqəmli (İnternetdə) hüquqların idarə edilməsi və təminatı ilə bağlı balans axtarışı: hüquq sahiblərinin həvəsləndirilməsi yaxud istifadəçilərin informasiya əldə edilməsinin sərbəstliyi;
- Azərbaycanın axtarış modelləri.

**6. "İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması" bölməsinin "Müasir təhsil sisteminin formalaşdırılması" 7.2 yarımbölməsindən:**

"Ödənişsiz əsaslarla fəaliyyət göstərən təlim resursları yaradılacaq, bu resurslar, müəllif-hüquq lisenziyaları ilə təmin olunmaqla, təhsil prosesinə inteqrasiya ediləcək və açıq istifadəyə veriləcəkdir".

**Tədbirlər:**

- Elektron təhsil texnologiyalarının tətbiqinin əhəmiyyətindən irəli gələn ödənişsiz əsaslarla fəaliyyət göstərən açıq təhsil resurslarının yaradılması və onun müəllif-hüquq lisenziyaları ilə təmin olunması layihəsinin hazırlanması və UNESCO-nun dəstəyi

ilə Təhsil Nazirliyi ilə birgə beynəlxalq seminarın keçirilməsi.

**Biliklər və biliklərə əsaslanan göstəricilərin inkişafı:**

- Elmi-texniki dairənin inkişafı (innovasiya sistemlərinin mövcudluğu, biliklərin yaranması) və tələbata uyğunluğu;
- Təlim və təhsilin inkişafı (biliklərin əldə edilməsi və keyfiyyətli istifadəsi potensialı);
- ƏM sahəsinin formalaşdırılması (ƏM çevrilmiş biliklərin qorunması və təminatı, qanunvericilik bazası);
- İdarəetmə sistemlərinin mükəmməlləşdirilməsi (bilik və informasiyanın kommunikasiyası, yayılması və emal edilməsi).



**Creative Commons (CC) və Açıq Təhsil Resursları**

- ✓ CC atribusiyaları (icazələri): obyektin yaradıcısının müəlliflik hüququ saxlanmaqla, əmlak hüquqlarından imtina etməsi (BY);
- ✓ BY-NC: qeyri-kommersiyalı atribusiya;
- ✓ BY-SA: lisenziya şərtlərinin saxlanması ilə;
- ✓ BY-ND: yenidən işlənməyə qadağa qoymaqla;
- ✓ BY-NC-SA: qeyri-kommersiyalı, lisenziya şərtləri saxlanmaqla;
- ✓ BY-NC-ND: qeyri-kommersiyalı, yenidən işlənməyə qadağa qoymaqla.

**CC-nin yayılması**

- ❖ 54 ölkədə və 100-dən artıq ölkələrdə yerli hüquqi şəraitə uyğun CC-nin işləməsi;
- ❖ Çində "Yüksək növ dövlət kursları" və mükafatlarla CCBY-NC-ND həvəsləndirilməsi;
- ❖ Azərbaycanda dərsliklərin sifarişi.



**7. “Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi” bölməsindən:**

“Qanunvericilik təkmilləşdiriləcək, piratçılıq və kontrafaksiya da daxil olmaqla, ƏMH-nın pozulmasına qarşı səmərəli tədbirlər görüləcəkdir”.

**Tədbirlər:**

- “ƏMH-nın təminatı və piratçılığa qarşı mübarizə haqqında” Qanunun icra edilməsi;
- “Rəqəmsal şəbəkədə hüquqların idarə edilməsi və əmlak hüquqlarını kollektiv əsasda idarə edən ictimai birliklər (təşkilatlar) haqqında” Qanun layihəsinin hazırlanması;
- “Rəqəmli şəbəkədə yayım təşkilatlarının hüquqlarının qorunması haqqında” Qanunun qəbul edilməsi;
- Azərbaycan Respublikasının “Audiovizual ifaların qorunması haqqında” ÜƏMT-nin Pekin Müqaviləsinə qoşulması;
- “Audiovizual əsərin, fonoqramın, kompüter proqramının, məlumat toplusunun və kitabın nüsxələrinə keçid dövrü üçün yapışdırılan nəzarət markasının verilməsi və istifadəsi Qaydalarının təsdiq edilməsi haqqında” Nazirlər Kabinetinin Qərarının qəbul edilməsi;
- “İctimai varidat sayılan əsərlərin dövlət varidatı elan edilməsi haqqında” Nazirlər Kabinetinin Qərar layihəsinin təkmilləşdirilməsi;
- “Müəlliflik hüququ, əlaqəli hüquqlar və digər oxşar ƏMH obyektlərinin elektron ticarətinin tənzimlənməsi Qaydalarının təsdiq edilməsi haqqında” Nazirlər Kabinetinin Qərarının qəbul edilməsi;
- “ƏM sahəsində piratçılığa qarşı mübarizə üzrə Komissiyanın yaradılması haqqında” Nazirlər Kabinetinin Qərarının qəbul edilməsi.

## Piratçılıq – beynəlxalq mənfi fenomendir

- ÜƏMT və İnterpol (VI Qlobal Konqress) 2009-cu ildə piratçılığın illik ziyanı > 1 mlrd.$, pirat və kontrafakt malları ticarət dövriyyəsi 200 mlrd.$;
- Beynəlxalq Ticarət Palatasının proqnoz məlumatı: 2015-ci ildə piratçılığın və kontrafaksiyanın iqtisadi ziyanı > 1,7 trln.$ (2011-ci il – 850 mln.$) 2,5 mln. iş yerinin azalmasına səbəb olacaq, o cümlədən Aİ-da 1,2 mln. insan;
- Aİ-da maddi itkilər həmin müddət üçün 240 mlrd. Avro;
- Aİ 2008-ci ildə: piratçılıqla bağlı itkilər 10 mlrd. Avro, işsiz qalanların sayı – 186 min;
- ACTA (Anti-Counterfeiting Trade Agreement): Avropa Parlamenti, iyul 2012-ci il;
- SOPA, PİPA (İnternetdə piratçılığa qarşı): ABŞ, 2012-ci il;
- ƏMH Təminatı Mərkəzi: Azərbaycan (nəzarət markaları rəqəmli qeydiyyat bazası və distant yoxlama sistemi).

Piratçılığın və kontrafaksiyanın həcmi (mlrd.$)



## Sosial şəbəkələr və piratçılıq

- 2012-ci il iyul tarixinə qədər 23 ölkə tərəfindən Tvitter-də hüquqların pozulması ilə bağlı 3378 müraciət daxil olmuş, 38% yerinə yetirilmiş (5275 tvit və 599 media fayl ləğv edilmiş);
- 2012-ci il iyul tarixinə qədər 6 ay ərzində Google müxtəlif ölkələrin hökumətlərindən yayımı dayandırmaq üçün > 1000 sifariş qəbul edib və > 50% yerinə yetirilib, 461 məhkəmə qərarları əsasında (6989 kontent elementi) 68% yerinə yetirilib.

**Mənbə**: *Qlobal Transparensy Report*

## Azərbaycanda piratçılığın səviyyəsinin müqayisəli göstəriciləri

Müvafiq sektorlarda 9-28% aşağı düşmüşdür







**8. “Mədəni irsin qorunması və səmərəli idarə edilməsi” bölməsindən:**

“Qeyri-maddi mədəni irsin tərkib hissələrinin qorunub saxlanılması, bu sahədə qanunsuz mənimsəmələrin və əsassız itkilərin qarşısının alınması, folklor nümunələrinin və ənənəvi biliklərin UNESCO-nun xüsusi qorunma siyahısına daxil edilməsi üçün əlavə tədbirlər həyata keçiriləcək, həmçinin milli qanunvericiliyin kompleks şəkildə təkmilləşdirilməsi, müəlliflik hüququnun və əlaqəli hüquqların qorunması, beynəlxalq normativ hüquqi bazanın tətbiqi və inkişafında iştirak təmin ediləcəkdir. Azərbaycana məxsus mədəni sərvətlərin, o cümlədən muzeylərdə, kitabxanalarda və arxivlərdə qorunub-saxlanılan və ictimai varidat sayılan mədəni irs və digər ƏM nümunələrinin mərkəzləşmiş şəkildə rəqəmləşdirilməsi, mühafizəsi, hüquqi qorunması və beynəlxalq təşkilatlarla, həmçinin xarici dövlətlərin aidiyyəti qurumları ilə mübadiləsi təmin ediləcəkdir”.

**Tədbirlər:**

- “Azərbaycana məxsus qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunması, qeydiyyatı və Dövlət Reyestrinin aparılması Qaydalarının təsdiq edilməsi haqqında” Nazirlər Kabinetinin qərarının qəbul edilməsi (*qərar layihəsi aidiyyəti dövlət orqanlarından vizalar alınaraq 2012-ci ilin IV rübündə Nazirlər Kabinetinə təqdim edilmişdir*).
- Azərbaycana məxsus mədəni sərvətlərin, o cümlədən muzeylərdə kitabxanalarda və arxivlərdə qorunub saxlanılan və ictimai varidat sayılan mədəni irs və digər ƏM nümunələrinin mərkəzləşdirilmiş şəkildə rəqəmləşdirilməsi, mühafizəsi, hüquqi qorunması və beynəlxalq mübadiləsinin təşkili.


Qeyri-maddi mədəni irs nümunəsi
Mədəniyyət və Turizm Nazirliyi
Dövlət Reyestrinə daxil olma
Pasportlaşma
Məlumat bazası
Qorunub-saxlanma
Pozitiv və müdafiəli hüquqi qorunma
Müəllif Hüquqları Agentliyi
Qeydiyyat
Qeydiyyat kitabı
Məlumat bazası



# Əsərlərin qeydiyyatı

## (on-line qeydiyyat daxil olmaqla 1996-2012)




**Qeyd:** *Qeydiyyatdan keçirilmiş obyektlər %-lə (1996-2012-ci illərdə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı - 8555)*

## (on-line qeydiyyat daxil olmaqla 2012)



**Qeyd:** *Qeydiyyatdan keçirilmiş obyektlər %-lə (2012-ci ildə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı -729)*

- Musiqili
- Ədəbi
- Elmi və tədris
- Dizayn və dekorativ
- Toplular
- Multimedia əsərləri
- Fonoqramlar və yayım təşkilatlarının verilişləri
- Məlumat bazaları

## “Folklor” rəqəmsal multimedia kitabxanası






"Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunması, qeydiyyatı və dövlət reyestrinin aparılması Qaydaları"na

1 nömrəli əlavə

**AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**Azərbaycan qeyri-maddi mədəni irs nümunəsinin**

**İNVENTAR PASPORTU**

**Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestrində qeydiyyata alınmışdır**

**Nümunənin adı** ______________________

**Reyestr kodu** ______________________

**Kateqoriyası** ______________________

**Sinfi** ______________________

**Qrupu** ______________________

**Növü** ______________________

**Janrı** ______________________

**İnventarlaşdırmanı aparan orqanın adı** ______________________

**Pasportun yazıldığı tarix** ______________________

**Nazir** ______________________

**M.Y.**

"Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunması, qeydiyyatı və dövlət reyestrinin aparılması Qaydaları"na

2 nömrəli əlavə

**AZƏRBAYCAN RESPUBLİKASININ MÜƏLLİF HÜQUQLARI AGENTLİYİ**

**Azərbaycan qeyri-maddi mədəni irs nümunəsinin dövlət qeydiyyatı haqqında**

**Ş Ə H A D Ə T N A M Ə**

№ _______

**Qeyri-maddi mədəni irs kimi qorunan obyektin adı** ______________________

______________________

**Növü** ______________________

**Obyektiv forması** ______________________

**Qeydiyyat tarixi və №-si** ______________________

______________________

**Müstəsna hüquq sahib(lər)i** ______________________

______________________

**Sifarişin tarixi və №-si** ______________________

**Müstəsna hüquq sahib(lər)i** ______________________

*(hüquqi ünvanı, dövlət qeydiyyatına alındığı tarix, yerli cəmiyyətin (qrupun) adı, yerləşdiyi ərazi)*

______________________

______________________

______________________

**məxsus olan** ______________________

*(qeyri-maddi mədəni irs nümunəsinin adı)*

dövlət qeydiyyatından keçirmiş və bu şəhadətnaməni vermişdir.

**SƏDR** ______________________

**M. Y.**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.